# Ulu öndərin elmə, təhsilə qayğısı uğurla davam etdirilir



***Ölkəmizin hər yerində müasir müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin böyük ehtiramla anıldığı bu günlərdə ümummilli liderin Vətən və xalq qarşısında əvəzsiz xidmətləri də xatırlanır, görkəmli dövlət xadiminin elmə, təhsilə daim xüsusi önəm verdiyi xüsusilə vurğulanır. Bu gün dahi rəhbərin ideyaları Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Ölkəmizdə ulu öndərin əsasını qoyduğu təhsil strategiyası fundamental bir konsepsiya kimi layiqincə davam etdirilir. Bu isə artıq real şəkildə özünün müsbət təzahürlərini göstərir.***

Bildiyimiz kimi, dünyada gedən sürətli elmi-texnoloji dəyişikliklər, Dördüncü Sənaye İnqilabı bilavasitə təhsilin üzərinə böyük məsuliyyət və tələblər qoyur. Dövlətimizin təhsilə baxışı qlobal çağırışlara, əmək bazarının tələblərinə cavab verəcək bilikli kadr təminatını formalaşdırmaq üzərində qurulur. Prezident İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi ölkə təhsilimizin yol xəritəsini müəyyənləşdirdi və hazırda strategiyanın icrası uğurla həyata keçirilir.

Orta ixtisas təhsilinin inkişafı ilə bağlı da yaxşı nümunələr çoxdur. Yeni kolleclərin yaranması, bəzi kolleclərin profillərinə uyğun olaraq universitetlərin bazasında fəaliyyətlərini davam etdirməsi, xüsusilə regionlarda tələb olunan ixtisaslar nəzərə alınmaqla yeni kolleclərin fəaliyyətə başlaması və digər bu kimi imkanlar sayəsində orta ixtisas təhsilinə maraq xeyli artırıb. Bizim kolleclə bağlı bir neçə il əvvəl Prezident İlham Əliyevin Masallıya səfəri zamanı ictimaiyyət nümayəndələri tərəfindən təkliflər səsləndirilib, Masallının böyük turizm potensialı olduğu xatırladılıb və burada müvafiq orta ixtisas təhsili müəssisəsinin yaradılması xahiş edilib. Çox keçmədən dövlət başçısının ali diqqəti sayəsində bu təklif reallaşıb və kollecimiz təsis edilib. İndi burada yüzlərlə tələbə turizm, baytarlıq, meşə və meşə-park təsərrüfatı, aqronomluq kimi ixtisaslara yiyələnir. Kollecimizin sayəsində rayonumuzda özünəməxsus tələbə mühiti yaradılıb. Hazırda Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən digər orta ixtisas təhsili ocaqları kimi, bizim Masallı Dövlət Regional Kollecinin də publik hüquqi şəxsə çevrilmə şəklində yenidən təşkili ilə əlaqədar tədbirlər görülür. Bununla da kolleclərin təhsilin səviyyəsini daha da artırmaq, ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olmaq imkanları artacaq.

Qarşıda bizi Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib ordumuzun işğaldan azad etdiyi tarixi torpaqlarımızda təhsil infrastrukturunu yenidən qurmaq, Azərbaycanın təhsil nailiyyətlərini daha da yüksəltmək missiyası gözləyir. Hər bir təhsil işçisi bu missiyanı aydın dərk edir və işıqlı perspektivlərə töhfələr vermək əzmindədir.

***Vidadi NƏZƏROV,***
***Masallı Dövlət Regional Kollecinin direktoru***

Xalq qəzeti .- 2021.- 12 dekabr.- S.8.